

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 208 (21.109)

*31 oktyabr 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Xorvatiya Respublikası Baş nazirinin birinci müavini, xarici və Avropa işləri üzrə naziri Vesna Pusiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında son illər ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə dinamik inkişafından məmnunluq ifadə olundu, enerji sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğu bildirildi və bu baxımdan "Cənub" qaz dəhlizinin əhəmiyyəti vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı münasibətilə rəsmi qəbul təşkil edilmişdir





Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 91-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilmişdir.

Tədbirdə çıxış edən Türkiyənin Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxumuş, türk xalqının istiqlal mübarizəsindən və cümhuriyyətin 91 illik şanlı tarixindən danışmışdır. Qeyd olunmuşdur ki, ötən əsrin əvvəllərində Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən azadlıq mübarizəsi nəticəsində türk xalqı öz müstəqilliyini qazanmış, demokratik, hüquqi və dünyəvi Türkiyə dövləti yaradılmışdır. Dünyada etibarlı tərəfdaş kimi tanınan Türkiyə dost və qardaş Azərbaycanla əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Ölkələrimiz arasındakı əlaqələrin xalqlarımızın etnik-mədəni mənşəyi və tarixi keçmişi ilə sıx bağlı olduğunu bildirən Baş konsul qarşılıqlı inam və etibar, strateji müttəfiqlik zəminində uğurla davam etdirilən bu münasibətlərin inkişafında Naxçıvan Muxtar Respublikasının rolunu xüsusi vurğulamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin Karaman əyalətindəki kömür şaxtasında baş vermiş uçqunla bağlı dərin təəssüfünü bildirmişdir.

91 il bundan əvvəl qəhrəman türk xalqının müstəqilliyini bütün dünyaya bəyan etdiyini və istiqlaliyyət qazandığını bildirən Ali Məclisin Sədri tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını müstəqillik bayramı münasibətilə təbrik edərək demişdir: "Qardaş Türkiyənin müstəqillik bayramı hər il ölkəmizdə də təntənə ilə qeyd olunur. Ona görə ki, soykök, milli və ortaq dəyərlərə söykənən qardaşlığımız möhkəm təməl üzərində qurulub. Bu təməlin əsasını ötən əsrin əvvəllərində Türkiyənin milli lideri Mustafa Kamal Atatürk, həmin əsrin sonunda isə xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuş, əlaqələrimiz inkişaf edərək ***"bir millətin iki dövləti"*** səviyyəsinə yüksəlmişdir. Bu amil hər iki qardaş xalq arasındakı sarsılmaz əlaqələrin əsasını təşkil edir. Türkiyə Cümhuriyyətinin keçdiyi inkişaf yolu, qazandığı nailiyyətlər bizdə böyük məmnunluq doğurur".

Ali Məclisin Sədri xalqlarımız arasında möhkəm və sarsılmaz təməl üzərində qurulan əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirmiş, çıxışını ümummilli lider Heydər Əliyevin Azərbaycan-Türkiyə əlaqələrinin mahiyyətini ifadə edən müdrik fikirləri ilə tamamlamışdır: ***"Azərbaycan və Türkiyə xalqlarının qardaşlıq, dostluq əlaqələri, milli ənənələrin eyni kökdən olmaları bu gün bizim üçün həm örnəkdir, həm də bu günümüz və gələcəyimiz üçün çox böyük əsasdır".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası mürəkkəb və çətin, eyni zamanda şərəfli yol keçib

***Naxçıvan Muxtar Respublikası 90 ildə olduqca mürəkkəb və çətin, eyni zamanda şərəfli yol keçib.***





Bakı Dövlət Universitetində (BDU) Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş tədbirdə bu qədim diyarın zəngin tarixindən, müxtəlif inkişaf mərhələlərindən danışılıb.

AzərTAc xəbər verir ki, müvafiq qurumların nümayəndələrinin, alim və müəllimlərin, tələbələrin iştirak etdikləri tədbirdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 14 yanvar tarixli Sərəncamının əhəmiyyətini vurğulayıb.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixindən bəhs edən rektor bu qədim diyarın çətin sınaqlarla üzləşdiyini, zaman-zaman qəsbkar ermənilərin Naxçıvan torpağına göz dikdiyini diqqətə çatdırıb. 1988-1993-cü illərdə bir tərəfdən ermənilərin torpaqlarımızda törətdikləri qanlı hadisələri, digər tərəfdən ölkə daxilində baş verən hərc-mərcliyi xatırladan akademik A.Məhərrəmov həmin çətin məqamlarda müdrik rəhbər Heydər Əliyevin blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının qəsbkar düşməndən qorunub saxlanılmasında tarixi xidmətlərini qeyd edib. Vurğulanıb ki, ulu öndər Heydər Əliyev həmin dövrdə öz xilaskarlıq missiyasını uğurla yerinə yetirib.

Naxçıvanın görkəmli alimlər, mədəniyyət xadimləri, siyasətçilər yetişdirdiyini bildirən A.Məhərrəmov deyib ki, bu qədim diyar Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu, müasir müstəqil dövlətimizin banisi və qurucusu Heydər Əliyevin vətənidir. Azərbaycan Prezidenti İlham Əliyev də Naxçıvan Muxtar Respublikasına daim böyük qayğı göstərir.

AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "90 illik şərəfli yol" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, Naxçıvan Muxtar Respublikası olduqca mürəkkəb, çətin, eyni zamanda şərəfli yol keçib. Tarix boyu Naxçıvan müxtəlif imperiyaların maraq dairəsində olsa da, heç bir məkrli qüvvə naxçıvanlıların iradəsini qıra bilməyib. 1921-ci ildə Naxçıvana muxtariyyət statusu verilib, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikası yaradılıb. Muxtariyyət statusu diyarın tarixi taleyində mühüm əhəmiyyət kəsb edib.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın və onun gözəl guşələrindən olan Naxçıvanın qorunmasında və inkişafında misilsiz xidmətlərindən bəhs edən akademik İ.Hacıyev dahi rəhbərin siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini bildirib. Məruzəçi bu gün Naxçıvan iqtisadiyyatının, elm və təhsilinin, mədəniyyətinin inkişafında Ali Məclisin Sədri Vasif Talıbovun fəaliyyətini vurğulayıb.

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov bildirib ki, Naxçıvan çox qədim tarixə, zəngin adət-ənənələrə, mədəniyyətə və incəsənətə malik olan bir diyardır. Dahi rəhbər Heydər Əliyevin böyük xilaskarlıq rolundan danışan Z.Əsgərov ulu öndərin Naxçıvanın tarixindəki müstəsna xidmətlərini xatırladıb. Qeyd edib ki, bu gün Naxçıvan çox sürətlə inkişaf edir.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, akademik Vasim Məmmədəliyev Naxçıvanın müasir inkişafının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıblar. Natiqlər Heydər Əliyev ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğulayıblar.

***Muxtar respublikamızda özəl bölməyə göstərilən dövlət qayğısı öz bəhrəsini vermiş, sahibkarlığın inkişafında ciddi nailiyyətlər qazanılmış, aqrar bölmədə yüzlərlə yeni istehsal müəssisəsi, kiçik fərdi təsərrüfatlar yaradılmışdır. Özəl sektorun inkişafı daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının yerli istehsal hesabına dolğun ödənilməsində və ərzaq təhlükəsizliyi proqramının uğurla icra edilməsində əhəmiyyətli rola malikdir. Hazırda muxtar respublikada Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 87 faiz təşkil edir.***

# *"Naxçıvan bağları"* əmtəə nişanı ilə satışa çıxarılan yerli tərəvəz məhsullarına tələbat artır

## *Böyükdüz istixana kompleksində son tamamlama işləri görülür*




"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni meyvə bağları salınır, istixana kompleksləri yaradılır. Tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər ötən il də uğurla davam etdirilmiş, Naxçıvan şəhərində yeni istixana kompleksi fəaliyyətə başlamışdır.

Sahibkar Elçin Bağırovun dediyinə görə, bu mühüm əhəmiyyətli sahənin inkişaf etdirilməsi üçün biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim edilmiş və fonddan 1 milyon 500 min manat güzəştli kredit ayrılmışdır. 2013-cü ilin mart ayında 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi fəaliyyətə başlamışdır. Burada Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılmış, istixana üçün yeni kənd təsərrüfatı texnikaları alınmışdır.

İstixana kompleksində Zirə, Tovuz və kənd sortu olan pomidor yetişdirilmiş və sifarişə uyğun, nəfis tərtibatla bəzədilmiş 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış "Naxçıvan bağları" əmtəə nişanı ilə satışa çıxarılmışdır. Bu, muxtar respublikamızda həmin məhsula olan tələbatın az bir hissəsini ödəyir. Artan tələbatın ödənilməsi və istixana kompleksinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 2014-cü ilin yanvar ayında daha bir biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Ümumi dəyəri 3 milyon 150 min manat qiymətləndirilən layihənin reallaşması üçün 2 milyon 500 min manat dövlət maliyyə dəstəyi göstərilməsi, qalan 650 min manatın isə sahibkarın daxili imkanları hesabına ödənilməsi nəzərdə tutulmuşdur. 2014-cü ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 2 milyon manat güzəştli kredit verilmiş və layihənin icrasına başlanılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 45 min 620 kvadratmetr torpaq sahəsi ayrılmış, əraziyə "Qarabağlar" kəhrizindən 17 kilometr, Böyükdüz kəndi ərazisində yerləşən arteziandan isə 1,5 kilometr məsafədə plastik borularla yeraltı daimi su xətti, qaz və elektrik xətləri çəkilmiş, ərazidə torpaq işləri görülmüş, transformator yarımstansiyası qoyulmuşdur.

Tikinti-quraşdırma işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün bu sahə üzrə Türkiyənin qabaqcıl təcrübəyə malik "May Çelik" şirkəti ilə müqavilə bağlanılmış, mal-materialın alınıb gətirilməsi üçün maliyyə vəsaiti ödənilmiş və materialların vaxtında idxalına başlanılmışdır. Müqaviləyə uyğun olaraq, mart ayından konstruksiya işlərinə başlanılmışdır. Altı ay müddətində təhvil verilməsi nəzərdə tutulan istixana kompleksində inşaat işləri qrafikə uyğun aparılmış, xaricdən idxal olunmuş paslanmayan materiallarla, külək təsirinin azaldılması nəzərə alınmaqla maili karkastoxuma işləri görülmüş, yan və üst qatının isə Günəş şüalarının tərsinin azaldan, davamlı, istilik saxlayan polikarbonat və neylon materiallarla üzlənməsi vaxtında başa çatdırılmışdır. Kompleksin daxilindəki ayrı-ayrı bölmələrdə ümumi uzunluğu 26 min 600 metr olan, 80 santimetrdən 1 metrədək dərinlikdə drenaj xətləri çəkilmiş, xüsusi örtükləri olan süzgəcli borular salınıb mərkəzi xəttə birləşdirilmişdir. Bu da yay mövsümündə suvarma zamanı torpağın tərkibində olan artıq suyun axıdılmasına, şoranlaşmanın qarşısının alınmasına, qış mövsümündə isə xüsusi pompalarla drenaj xəttinə vurulan isti hava ilə şitillərin qidalanmasına imkan verəcək. İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılmışdır. Türkiyənin "Alarko" şirkətindən 6 ədəd soba alınmışdır. Bu sobaların 3-ü təbii qazla, 3-ü isə həm təbii qaz, həm də dizel yanacağı ilə işləyir ki, bu da müəssisəni fasiləsiz istiliklə təmin edəcək. İstixana kompleksinin gündəlik tələbatı nəzərə alınaraq Türkiyədən 4 ədəd hər birinin tutumu 225 ton olan yerüstü qapalı hovuz alınıb quraşdırılmışdır. Bu, su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayır. Burada su təchizatı kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılır. Su, təmizləyici qurğudan keçdikdən sonra torpağın tərkibi haqqında laborator analizin cavablarına uyğun ayrı-ayrı çənlərdə hazırlanmış gübrələr suya əlavə olunmaqla istixanaya ötürülür və suvarma damcı üsulu ilə aparılır.

Layihəyə uyğun olaraq, istixana kompleksində toxumcücərtmə, şitilyetişdirmə, pomidor, xiyar, çiyələk, dibçək gül toxumları yetişdirilən ayrı-ayrı bölmələr və turşubağlama sahəsi yaradılmış, oktyabrın 1-dən 15 gün ara verilməklə pomidor, xiyar şitilləri əkilmişdir. İllik istehsal gücü 1,2-1,5 milyon ədəd olan şitilyetişdirmə bölməsində istehsal olunan şitilin 250 min ədədi kompleksin daxili tələbatını ödəyəcək, qalan hissəsi isə muxtar respublikamızda fəaliyyət göstərən digər istixana komplekslərinə və fərdi torpaq mülkiyyətçilərinə satılacaq. Toxumcücərtmə bölməsində tələbata uyğun olaraq, xüsusi qəliblərdə müxtəlif sort toxumlar cücərdilir. Çiyələkyetişdirmə bölməsində su kanalı ilə təchiz olunmuş novdanlarla üçmərtəbəli əkin sistemi quraşdırılmış, torpaq, üzvi gübrə və Almaniyadan gətirilmiş torf qarışığı tökülərək əkin aparılmışdır. Turşubağlama sahəsində isə məhsuldarlıq dövrü başa çatan pomidor, xiyar kollarından toplanan yetişməmiş məhsullar 200 kiloqramlıq taralarda turşu qoyulacaq və sonrakı mərhələdə 2, 3, 5 və 10 kiloqramlıq taralara qablaşdırılıb satışa çıxarılacaq.

İstixanada müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, pomidor və xiyar kollarının tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsul istehsalına imkan verir. Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu mütəmadi olaraq nəzarətdə saxlanılır. İllik istehsal gücü min ton olan istixana kompleksinin fəaliyyətə başlaması qış aylarında daxili bazarın tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradacaq. Onu da qeyd edək ki, Böyükdüz istixana kompleksinin ilk məhsulları noyabr ayından bazara çıxarılacaq.

Hazırda soyuducu anbar, yeməkxana, işçilər üçün otaqlar inşa olunan istixana kompleksində son tamamlama işləri görülür, kompleksin ətrafında abadlıq işləri aparılır. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan Böyükdüz istixana kompleksi daxili bazarı yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təmin etməklə yanaşı, əhalinin məşğulluğunun artırılmasında da mühüm rol oynayacaq, 30 nəfərə yaxın əmək qabiliyyətli şəxs daimi işlə təmin ediləcək ki, bu işçilərin əksəriyyəti Böyükdüz kəndinin sakinləri olacaq.

**✍ Kərəm HƏSƏNOV**

# Ordubad rayonunda meyvəçiliyin şöhrəti özünə qaytarılır

***Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin əsas mərkəzi Ordubad rayonu hesab edilir. Tarixən Ordubad meyvələri yalnız Naxçıvanda deyil, bütün Cənubi Qafqazda şöhrət tapıb. Bölgədə, demək olar ki, bütün evlərin həyətlərində meyvə ağacları əkilib. Onlara xüsusi qayğı da göstərilib. Ordubadlı bağbanlar da adı ilə deyilib. Onların yetişdirdikləri şaftalı, ərik, albalı, gilənar, gavalı, cəviz, tut və sair meyvələr yüksək keyfiyyəti ilə seçilib.***



Burada yetişdirilən meyvələrin şöhrəti dünyanın bir çox ölkələrinə yayılıb. Elə bu amil də dünya səyyahlarının Ordubada marağını artırıb. Onlar həmin meyvələr haqqında məxəzlərdə ətraflı məlumatlar veriblər. Məsələn, Ordubad bağlarından böyük heyranlıqla danışan səyyah İ.Şopen yazır ki, burada almanın, armudun, şaftalının və gavalının çoxlu növləri yetişdirilir. Onun yazdığına görə, Ordubadın "gülabi" adlı armudu öz dadına və xüsusilə böyüklüyünə görə seçilirdi. Bu armudlar tam yetişərkən o qədər böyük olurdular ki, onların ikisini bir boşqaba yerləşdirmək mümkün olmurdu. Ordubad həm də mənbələrin əksəriyyətinin "albuxara" adlandırdığı alça və gavalılarla məşhur idi. Səyyahların bir çoxu yerli ərik sortlarının müalicəvi xüsusiyyətləri, bu meyvə sortlarının yayılma arealı barədə ətraflı məlumatlar veriblər.

İ.Şopenə görə, XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Ordubadda bağlar bütün ərazinin yarıdan çoxunu əhatə edirdi. Bağların ümumi sayı burada 1380-dən çox idi. Bağların xeyli hissəsi Ordubad şəhərində yaşayan əhaliyə məxsus idi. Burada olan 193 bağ daha böyük sahəni əhatə edirdi. Bəzi məlumatlara görə, XVIII əsrin sonuncu onilliyində Naxçıvanda yetişdirilən 2495 pud meyvənin çox böyük hissəsi Ordubad bağlarının payına düşürdü.

Onu da qeyd edək ki, Ordubadın dünya şöhrəti qazanmış meyvələri müxtəlif beynəlxalq sərgilərdə nümayiş etdirilib. Həmin qiymətli sortların dünyanın müxtəlif ölkələrinə yayılmasında belə sərgilər mühüm rol oynayıb. Yalnız torpaq və iqlim şəraitinə görə Ordubada uyğun gələn zonalarda həmin məhsullar öz keyfiyyətini saxlaya bilib. Azərbaycanın Xalq şairi Nəbi Xəzri yazır ki, xarici ölkələrin birində mənşəyi Ordubad rayonuna məxsus olan iydə ağacına rast gəlib. Həyətində bu ağaca lazımınca qulluq edən həmyerlimiz qəmginliklə bildirib ki, ağac çiçəkləyir, ətri bütün həyətə yayılır. Meyvə də gətirir. Lakin yetişmir. Bu da İlahinin bir möcüzəsidir ki, Ulu Tanrı bu möcüzəni qədim diyarımıza bəxş edib.

Qayıdaq əvvəlki söhbətimizə. Ötən əsrin 70-80-ci illərində rayonda bağçılığın inkişafına böyük önəm verilib, 900 hektardan artıq bağdan meyvə məhsulu toplanılıb. Rayonun Dəstə, Aza, Vənənd və başqa kəndlərində elə meyvə sortları yetişdirilib ki, onları xalq seleksiyası yolu ilə ordubadlı bağbanlar yaradıblar. Belə sortlara digər yerlərdə təsadüfən rast gəlmək olar ki, həmin sortlar Ordubaddan aparılıb. Təəssüf ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Ordubadın meyvə bağları məhv edildi. Ordubad bağbanları, eləcə də meyvəçiliyə maraq göstərən ordubadlılar müxtəlif meyvə sortlarını öz həyətyanı təsərrüfatlarında qoruyub saxlaya bildilər.

Bəs bu gün Ordubadda bu sahənin vəziyyəti necədir? Bu suala cavab tapmaq üçün rayonda olduq. Sakinlərlə, bağbanlarla görüşdük. Onların söhbətlərini dinlədik. Uzun müddət pedaqoji işdə çalışmış təqaüdçü müəllim Südeyf Hacıyev bildirdi ki, hələ gənc yaşlarından meyvəçiliklə məşğul olur. Özünün tingliyi var. Yerli meyvə sortlarının artırılmasına üstünlük verir. Bəlkə də, çoxları inanmaz ki, Südeyf müəllim yetişdirdiyi tingləri pulsuz-parasız pay verir. Bu savab işdən zövq alır:

– Deyirlər ki, dünyada ən savab işlərdən biri ağac əkməkdir. Ağac olmalıdır ki, onu əkəsən.

Haqq sözə nə deyəsən? Sağ olsun, Ordubadda belə savab işlə məşğul olan bağbanları.

Rayonun Əndəmic, Gənzə, Vənənd, Dəstə kəndlərində belələri onlarladır. Oxucuların vaxtını almamaq üçün deyim ki, həmsöhbət olduğumuz belə insanlar son illərdə muxtar respublikada meyvə bağlarının, yaşıllıq zolaqlarının sahələrinin artırılmasına mühüm əhəmiyyət verildiyini, bu işə vətənpərvərliklə yanaşıldığını xüsusi vurğuladılar. Keçirilən imeciliklərin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın Ordubadda meyvəçiliyin əvvəlki şöhrətinin qaytarılmasında mühüm rol oynadığını bildirdilər. Bölgənin torpaq mülkiyyətçiləri həm öz tələbatlarını ödəmək, həm də daxili bazara töhfələrini vermək, yerli meyvə məhsullarının bolluğunu yaratmaq üçün səylərini artıraraq uğurlu nəticələr qazanıblar. Faktlara müraciət edək. Son 10 il ərzində rayonda 140 minə yaxın meyvə ağacı əkilib. Onlara vaxtlı-vaxtında və aqrotexniki qaydada qulluq göstərilib ki, həmin ağacların böyük əksəriyyəti artıq barverən ağaclar sırasındadır. 124,5 hektar sahədə yeni bağlar salınıb. 90 hektar bağ sahəsi bərpa olunub. Cari ildə bu iş davam etdirilərək rayonun Aza, Qoşadizə, Düylün, Dəstə, Vələver, Biləv, Gilançay, Aşağı Əylis yaşayış məntəqələrinin ərazilərində, ümumilikdə, 9,4 hektar sahədə yeni meyvə bağı, Dəstə kəndi ərazisində 0,7 hektar sahədə toxumacalıq salınıb. Meyvəçiliyin inkişafı üçün kreditlərin verilməsi də diqqət mərkəzində saxlanılıb. Meyvə bağı salınması üçün 2012-ci ildə 7 nəfərə 98 min manat, Aza, Vənənd, Əndəmic kəndlərində limon istixanasının yaradılması üçün 4 nəfərə 57 min manat, 2013-cü ildə limon istixanası üçün 3 nəfərə 56 min manat, 2014-cü ildə isə həmin məqsəd üçün 1 nəfərə 30 min manat kredit verilib.

Son illər göstərilən qayğı Ordubad meyvəçiliyinin şöhrətini özünə qaytarmaqdadır. Bu gün rayonda 682,31 hektar bağ sahəsi mövcuddur. Bunun 526,94 hektarından meyvə tədarük olunur. 2013-cü ildə meyvə bağlarından 322,85 ton alma, 214 ton armud, 246,3 ton heyva, 465,7 ton şaftalı, 508,3 ton ərik, 228 ton üzüm, 200,5 ton tut, 295,5 ton cəviz toplanılıb. Cari il də Ordubad meyvəçiləri üçün uğurlu sayıla bilər. İndiyədək meyvə bağlarından xeyli məhsul toplanılıb, bu iş davam etdirilir.

***Artıq payız mövsümüdür. Bu mövsüm yeni bağlar salınması üçün ilin ən sərfəli dövrüdür. Həmin imkandan səmərəli istifadə etmək, bağ sahələrini genişləndirmək məqsədilə artıq yol kənarlarında, digər əkinlər üçün istifadəsi mümkün olmayan ərazilərdə hazırlıq işləri görülməsinə başlanılıb.***

**✍ Muxtar MƏMMƏDOV**

# Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılır

***XXI əsr informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, ayrı-ayrı regionların bir-birinə daha çox inteqrasiya olunduğu, zəngin keçmişi olan xalqların ənənəvi dəyərlərinin daha çox sıxışdırılmağa məruz qaldığı, hər bir dövlətin həyata keçirdiyi siyasətdə öz gələcəyini sağlam təməllər üzərində qurmaq prinsipinin qabardıldığı, bir sözlə, hər an yenilənən, hadisələrin intensiv xarakter aldığı bir zamandır. Əlbəttə, belə bir dövr uşaqlarla aparılan işin metodikasını dəyişməyi, zamanla uzlaşdırmağı tələb edir. Bunu edən, eramızın sayca sonuncu əsri ilə ayaqlaşan dövlətlər öz gələcəyinə inana bilərlər.***

Muxtar respublikada son illər uşaqlarla bağlı həyata keçirilən tədbirlər, görülən işlər öz bəhrəsini verməkdədir. Sevindiricidir ki, regionumuzda hazırda cinayət törədən və cəzaçəkmə müəssisələrində 18 yaşadək uşaq yoxdur. Uşaq hüquqlarının pozulmasının qarşısının alınması, bu sahədə maarifləndirici tədbirlərin həyata keçirilməsi, ümumtəhsil məktəblərində uşaqların zərərli vərdişlərdən uzaqlaşdırılması və milli dəyərlərimizin onlara aşılanması məqsədilə mütəmadi olaraq seminarların keçirilməsi, uşaqların təhsil almalarına, asudə vaxtlarının səmərəli təşkilinə ciddi yanaşılması yeni nəslin sağlam böyüməsinə gətirib çıxarmışdır.

Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının yaradılması da bu istiqamətdə görülən işlərin davamıdır. Çünki informasiya-kommunikasiya texnologiyalarının yaratdığı imkanlardan istifadə edib uşaqlarla bağlı məlumatları elektronlaşdırmaqla uşaq hüquqlarının daha operativ müdafiəsinə, aidiyyəti orqanların bu sahə ilə bağlı səmərəli fəaliyyətinə, hər bir uşaq haqqında informasiyaların asanlıqla əldə olunmasına nail olmaq olar. Bu amillər nəzərə alınaraq muxtar respublikada uşaqların qanunla müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının fəaliyyət göstərməsi ayrıca müddəa kimi yer almışdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası" təsdiq edilmişdir.

Bundan əlavə, bu il 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri uşaq hüquqlarının qorunması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə uşaqlar haqqında elektron məlumat bankının yaradılmasını başa çatdırmağı tapşırmışdır. Bununla əlaqədar komitənin müraciəti əsasında hal-hazırda Naxçıvan Muxtar Respublikasının İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində elektron məlumat bankının proqram təminatı hazırlanmaqdadır.

Muxtar respublikamızda 157 min 76 nəfər uşaq yaşayır. Hər il bu rəqəm orta hesabla bir-iki faiz arası, bir az da konkretləşdirsək, ildə 2500 nəfər artmaqdadır. Buna görə də uşaqlara qiyabi nəzarəti gücləndirmək üçün elektron məlumat bankı sisteminin qurulması vacibdir. Digər tərəfdən, məlumat bankı muxtar respublikada uşaqlarla bağlı hər hansı problemi dərhal aşkar etməyə və həllini asanlaşdırmağa imkan verən mühüm mexanizmdir. Əgər muxtar respublikanın ucqar yaşayış məntəqəsində yaşayan, sağlamlıq imkanlarının məhdudluğu təhsil almasına mane olmayan Həsən Məmmədov (ad şərtidir) təhsilə cəlb olunmamışsa, bu haqda elektron məlumat bankından öyrəniləcəkdir. Müvafiq nazirlik, komitə və idarələrin uşaqlarla bağlı verdiyi məlumatlar əsasında məlumat bankında muxtar respublikada yaşayan bütün uşaqlar haqqında fərdi məlumatlar toplanacaq. Bunun əsasında muxtar respublikada uşaqların ümumi vəziyyəti barədə məlumat formalaşdırmaq mümkün olacaqdır.

Elektron məlumat bankının istifadəçiləri Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər, Ədliyyə, Təhsil, Səhiyyə, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Miqrasiya Xidməti, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanlarıdır. Elektron məlumat bankını uşaqlar haqqında məlumat bazası və bu bazaya məlumatların daxil edilməsini, dəyişdirilməsini, mühafizə edilməsini, axtarışların aparılmasını və digər əməliyyatların həyata keçirilməsini təmin edən texniki proqram kompleksi təşkil edir.

Uşaqlar haqqında məlumat bazası elektron məlumat bankının mərkəzi serverində yerləşir və bura hər bir uşaq barədə fərdi məlumatlar daxil edilir. Elektron məlumat bankına uşaq barəsində məlumatlar daxil edən mərkəzi və yerli icra hakimiyyəti orqanları yalnız müəyyən olunmuş formaya uyğun elektron anketin öz səlahiyyətlərinə aid hissələri üzrə bəndləri doldururlar. Elektron məlumat bankı elektron anketə daxil edilmiş məlumatlara əsasən, statistik hesablama sisteminə malikdir. Elektron məlumat bankı istifadəyə verildikdən sonra buradan uşaqlarla bağlı müxtəlif məlumatları asanlıqla əldə etmək mümkündür. Məsələn, məlumat bankının proqramında statistika bölməsinə daxil olmaqla, "a) sağlamlıq imkanları məhdud uşaq" və "b) idman nailiyyətləri olan uşaq" menyularını seçdikdə idman nailiyyətləri olan sağlamlıq imkanları məhdud olan uşaqların adları və onların sayı barədə məlumatları əldə etmək mümkün olacaqdır. Uşaqların adlarını seçməklə həmin uşağın elektron anketinə baxmaq olar.

Elektron məlumat bankının idarə olunmasına, məlumat bankına məlumatların yerləşdirilməsinə və ondan istifadəyə nəzarəti məlumat bankının administratoru həyata keçirir. Elektron məlumat bankının fasiləsiz fəaliyyətinin və daxil edilən məlumatların mühafizəsinin təmin edilməsi, məlumatların işçi stansiyalardan ötürülməsinə və işçi stansiyalarla bağlantıların təmin edilməsinə nəzarət, elektron məlumat bankında qeydiyyata alınmış uşaq barəsində məlumatları mərkəzi serverə daxil etmək, mərkəzi serverə qoşulmaq üçün müvafiq bağlantı parametrlərini vermək, elektron məlumat bankının mühafizəsini təmin etmək məqsədilə istifadəçinin adının, şifrəsinin və digər parametrlərinin dəyişdirilməsi üçün əməliyyat aparmaq, müvafiq statistik məlumatlar hazırlayaraq təhlil etmək administratorun əsas vəzifəsidir. Texniki problemlər yarandıqda, serverə virus hücumları olduqda və səhv məlumatlar göndərildikdə administrator işçi stansiyasının fəaliyyətini məhdudlaşdırır və ya dayandırır.

Elektron məlumat bankına məlumatların vaxtlı-vaxtında daxil edilməsinə nəzarət etmək və oradan məlumatların alınmasını təşkil etmək üçün elektron məlumat bankının istifadəçisi olan orqanlarda cavabdeh şəxs və məlumatları banka daxil etmək və oradan məlumatları almaq səlahiyyətinə malik operator təyin edilir. Cavabdeh şəxs elektron məlumat bankına daxil edilmiş məlumatların düzgünlüyünü, onlarda müvafiq dəyişikliklərin mütəmadi olaraq aparılmasını təmin etməlidir. Operator elektron məlumat bankının administratoru tərəfindən müəyyən edilən və ona təhvil verilən istifadəçi adına, şifrəyə və digər bağlantı parametrlərinə malik olur. İstifadəçilər öz fəaliyyət istiqamətlərinə aid olan informasiyaları xüsusi proqram təminatı vasitəsilə dolduraraq məlumat bankının mərkəzi serverinə ötürürlər. Məlumatlarda hər hansı bir dəyişiklik baş verdikdə istifadəçi həmin məlumatı üç gün müddətində müvafiq qaydada mərkəzi serverə ötürür və ya elektron daşıyıcılarla administratora çatdırır.

Dövlət orqanları, hüquqi və fiziki şəxslər məlumat bankından məlumat almaq üçün bilavasitə məlumat bankının administratoruna sorğu vasitəsilə müraciət edirlər. Daxil olan sorğu administrator tərəfindən öyrənilir və sorğunun daxil olduğu gündən yeddi iş günü müddətində onun icrası təmin olunur. Elektron məlumat bankında qeydiyyata alınmış uşağın elektron anketi 18 yaşına çatdıqdan iyirmi beş il sonra məhv edilir.

Məlumat bankından statistik məlumatlar adsızlaşdırılmış şəkildə, fərdi məlumatlar isə "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada verilir. Məlumat bankında toplanmış məlumatların konfidensiallığı administrator tərəfindən təmin edilir.

***Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına müvafiq məlumatları daxil edəcək dövlət orqanları***




Elektron məlumat bankının administratoru Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Muxtar respublikanın müvafiq dövlət orqanları öz funksiyalarına uyğun olaraq, uşaqlar haqqında məlumatları elektron məlumat bankına ötürəcəklər. Bu məlumatlar uşağın adı, soyadı və atasının adı, doğulduğu tarix, yaşadığı ünvan, fərdi identifikasiya nömrəsi, şəxsiyyət vəsiqəsinin və ya doğum haqqında şəhadətnaməsinin seriya və nömrəsi, ailə üzvlərinin sayı, ata və anasının yaşadığı ünvan və vətəndaşlıq vəziyyətləri, doğum və ölüm tarixləri, məşğulluqları, valideynlərinin nikah vəziyyəti ilə bağlı olacaqdır. Bundan əlavə, uşağın himayədə və qəyyumluqda olması, qeydiyyatda olduğu səhiyyə və təhsil aldığı müəssisələr, sağlamlıq tarixçəsi, xüsusi təhsil və idman nailiyyətləri, asudə vaxtını təmin edən istirahət düşərgəsi, uşağa təyin edilmiş əmək pensiyası və yaxud sosial müavinətlər, ünvanlı sosial yardım, aliment və onun məbləği, uşaqla bağlı həyata keçirilmiş tərbiyəvi tədbirlər, uşağa qarşı hüquqpozmalar və uşağın hüquqpozmaları, 15 yaşından yuxarı uşağın məşğulluq vəziyyəti, eləcə də uşağın hüquqları ilə bağlı qəbul edilmiş ərizə, şikayət və müraciətlərin səbəbləri, onların icraata götürülmə və işə xitam verilmə tarixi, ölümünün qeydiyyatı barədə məlumatlar da uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankında yerləşdiriləcəkdir.

Muxtar respublikamızın yerləşdiyi coğrafi məkan təkcə təbiəti ilə deyil, eləcə də siyasi, iqtisadi baxımdan dünyanın digər regionlarından seçilir. Sözsüz ki, belə bir məqam bir tərəfdən muxtar dövlətimiz üçün bir üstünlükdür. Digər tərəfdən isə işlək, hərəkətli, tranzit regionda yerləşməyimiz yeni nəslin sağlam təməllər üzərində böyüməsini əngəlləyən arzuolunmaz təsirlərə məruz qala bilmək riskini artırır. Qürurverici haldır ki, muxtar respublikada qabaqlayıcı profilaktik iş yüksək səviyyədə qurulmuş, gələcəyimizlə bağlı iş prinsipi düzgün müəyyənləşdirilmişdir. Bu baxımdan dövlət orqanları tərəfindən uşaq problemlərinin əlaqəli şəkildə çevik həllinin təşkili məqsədilə uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının yaradılması gələcəyimizin daha sağlam, möhkəm təməllər üzərində qurulmasına hesablanmışdır.

***Xalqımızın gələcəyinin təminatçısı olan uşaqlarla aparılan işin əsas prinsiplərinin ənənəvi dəyərlərimiz üzərində qurulması, çatışmazlıqların operativ şəkildə həlli, hər bir uşağa nəzarətin mütərəqqi üsullarla həyata keçirilməsi muxtar respublikada mövcud vəziyyətin, əmin-amanlığın, stabil inkişafın qarşıdakı dövrdə də davam edəcəyinə əminlik yaradır.***

**Sahir RÜSTƏMOV**

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

# Əmək yarmarkalarında işlə təmin olunanların sayı artır

***Ölkəmizdə əhalinin məşğulluğunun təmin olunması, yeni iş yerlərinin yaradılması, yoxsulluğun səviyyəsinin daha da aşağı düşməsi üçün mümkün olan bütün vasitələrdən istifadə edilir. Şərur rayonunda keçirilən növbəti əmək yarmarkasında bu barədə geniş danışılıb.***

Məşğulluq tədbirini giriş sözü ilə açan rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov deyib ki, muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatlar əhalinin məşğulluğunun və rifahının yüksəldilməsinə xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu mənada mühüm əhəmiyyət daşıyır. Cari ilin aprel, iyun və avqust aylarında əmək yarmarkası keçirilib, bu yarmarkalara, ümumilikdə, 500-dən çox boş iş yeri çıxarılıb, 136 nəfər işlə təmin olunub.

Əmək yarmarkasına 27 müəssisədən 295 boş iş yeri çıxarıldığını bildirən mərkəzin direktoru belə tədbirlərin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

Şərur Rayon İcra Hakimiyyətinin şöbə müdiri Səfər Hüseynov qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilir. Şərur rayonunda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təminatında mühüm rol oynayır və sakinlər tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Tədbirdə işaxtaran vətəndaş Türkanə Ələkbərova çıxış edərək təşkilatçılara minnətdarlığını bildirib və deyib ki, bu qəbildən fəal məşğulluq tədbirləri rayon sakinləri tərəfindən maraqla qarşılanır, onların müvafiq işlə təmin olunmaq imkanlarını artırır.

Əmək yarmarkasında 38 nəfərə işə göndəriş verilib, 15 nəfər ictimai işlərə cəlb edilib.

**Cəfər ƏLİYEV**

# Şagirdlər arasında dərin tibbi yoxlamalar aparılır

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, hər il yaz və payız mövsümlərində ümumtəhsil müəssisələrində şagirdlər arasında dərin tibbi yoxlamalar aparılır. Cari payız mövsümünün yoxlamalarına isə oktyabrın 13-dən start verilib.***

Profilaktika xarakteri daşıyan yoxlamalar Naxçıvan şəhərinin 20 tam orta məktəbini əhatə edəcəkdir. Qısa müddətdə 11 tam orta məktəbdə belə müayinələr aparılıb, 7065 şagird kompleks tibbi yoxlamadan keçib. 62 şagird göz, 52 şagird stomatoloji, 15 şagird nevroloji, 5 şagird cərrahi, 2 şagird dəri-zöhrəvi, 23 şagird digər xəstəliklərin ilkin əlamətlərinə görə əlavə və təkrar yoxlamalar üçün xəstəxanaya – stasionara dəvət olunub. Sonrakı mərhələdə müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların daha yüksəkixtisaslı mütəxəssis həkimlər tərəfindən konsultasiyası, lazım olan hallarda isə stasionar müalicəsi təşkil ediləcəkdir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının LOR, oftalmoloq, nevropatoloq, cərrah, pediatr, stomatoloq, dermatoloq, ortopedlərdən təşkil olunmuş həkim briqadası tərəfindən həyata keçirilən bu tədbir 15 nömrəli tam orta məktəbdə də uğurla icra olunub. 639 məktəblidən 628-i profilaktik müayinələrlə əhatə olunub. Müayinələrlə yanaşı, səhiyyə maarifi işi də aparılıb.

Qeyd edək ki, şagirdlər arasında ilkin vərəmi aşkarlamaq üçün mantu sınağı aparılır, nəticələr yoxlanılır. Təkcə ötən ilin payız mövsümündə 10 min 775 şagird müayinələrə cəlb olunub, kompleks tibbi yoxlamadan keçirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Fərdi qəza sığortası hər kəs üçün faydalıdır

*İnsan üçün onun həyatı və sağlamlığı ən dəyərli nemətdir. Bu nemətin qorunması, onun daim qiymətləndirilməsi də insanları düşündürən əsas qayğılardandır. Günün 24 saatı ərzində baş verə biləcək bəzi gözlənilməz hadisələr isə bəzən elə nəticələnə bilər ki, dəyən maddi zərərlərin əvəzinin ödənilməsi yalnız sığorta yolu ilə mümkün olar. Adamların fərdi təhlükəsizliyi və rahat həyatının təmin olunmasında sığortanın əhəmiyyəti də buradan görünməkdədir. Buna görə hər bir ölkədə vətəndaşların həyat və sağlamlığını riskli təbii və texnogen hadisələrdən sığortalamaq əsas vəzifələrdən biri hesab edilir.*

Sığortanın növləri və təşkili formalarına görə fərdi qəza sığortasının öz yeri vardır. Könüllülük prinsipləri üzərində həyata keçirilən bu sığorta növü tərəflərin qarşılıqlı razılaşma yolu ilə qaydalar əsasında aparılır. İcbari olan digər sığorta növləri ilə müqayisədə bu sığorta növünün də üstünlükləri vardır. Belə ki, istehsalatda bədbəxt hadisələrdən icbari sığorta yolu ilə sığortalanan şəxslərə yalnız iş vaxtı baş verə biləcək hadisələrdən təminat verilirsə, fərdi qəza sığortalı insana isə onun harada olmasından və günün hansı saatından asılı olmayaraq, baş vermiş gözlənilməz, bədbəxt hadisələrdən təminat verilir. Bu isə hər bir insanın harada olmasından asılı olmayaraq, özünə verdiyi dəyərin bir tələbat kimi reallaşdırılması deməkdir. Gündəlik həyatımızda rast gəlinən hadisələri, bu hadisələrin insanların həyatında və sağlamlığında ciddi fəsadlarla nəticələnən hallarını gördükdə daha etibarlı gələcək üçün sığorta agentliyi tərəfindən həyata keçirilən fərdi qəza sığortasının hər kəs üçün əhəmiyyəti bir daha məlum olur.

Sağlamlığın və əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən qəfil, gözlənilməz bədbəxt hadisələrə həmişə, hər yerdə rastgəlmə ehtimalı vadır. Fərdi qəza hadisəsi hesab olunan belə hadisələr zamanı sığorta olunduqda sığortaçı tərəfindən ona ödənilən ödənişlər dəymiş zərərin qarşısının alınması üçün istifadə oluna bilər. Hər gün rast gəlinən fiziki, kimyəvi, texniki xarakterli təsadüfi hadisələrdən dəymiş zərərlərin əvəzini bu yolla ödəmək mümkündür. Belə ki, insanın cansağlığının və əmək qabiliyyətinin itirilməsi ilə müşayiət olunan yanğın, partlayış, donma, suda boğulma, elektrik cərəyanı, ildırım, günvurma, vəhşi heyvanların və cinayətkar ünsürlərin hücumu, tənəffüs yollarına yad əşyanın düşməsi, zəhərli bitkilərdən kəskin zəhərlənmə, eləcə də avtomobil, mexanizm və alətlərdən istifadə zamanı ona dəymiş zərərə görə sığortalı vətəndaşın özü və ya ailəsi sığorta müqaviləsində göstərilmiş məbləğdə sığorta ödənişi ilə təmin olunur.

Fərdi qəza sığortası tərəflər arasında razılaşdırılma əsasında sığorta müqaviləsi bağlamaqla həyata keçirilir. Bu müqaviləyə əsasən, sığortalı şəxsin ödədiyi razılaşdırılmış sığorta haqqı müqabilində sığorta hadisəsi baş verdiyi zaman həmin müqavilədə göstərilən sığorta məbləğinin sığortaçı tərəfindən faydalanan şəxsə, yəni sığorta olunana və ya sığortaolunan bədbəxt hadisə nəticəsində vəfat etdiyi hallarda övladlarına verilməsi nəzərdə tutulur.

Fərdi qəza sığorta növü üzrə müqavilə bağlanarkən sığortalı şəxsin ödədiyi sığorta haqqı razılaşdırılmış sığorta məbləğinə və sığortaolunanın peşəsi, məşğuliyyəti nəzərə alınmaqla müəyyənləşdirilən tarif dərəcəsinin sığorta məbləğinə nisbətdə hesablanmış pul məbləğidir. Başqa sözlə, fərdi qəza sığortası üzrə tarif dərəcəsi risklərin səviyyəsindən asılı olaraq, 0,5 faizdən 2 faizədək məbləğdə müəyyənləşdirilir. Məsələn, aşağı risk dərəcəsində 1000 manat dəyərində sığorta məbləği üçün 0,5 faiz tarif dərəcəsi ilə 5 manat sığorta haqqı ödəməklə müqavilə bağlamaq mümkündür. Beş min manatlıq sığorta məbləği üçün isə müqavilə bağlandıqda 0,5 faiz tarif dərəcəsi ilə 25 manat sığorta haqqı ödənilməlidir. Nisbətən yüksək risk səviyyəsi mövcud olduqda isə min manatlıq sığorta məbləği üçün 1 faiz tarif dərəcəsi ilə 10 manat sığorta haqqı, 5 min manatlıq sığorta məbləği üçün isə 50 manat sığorta haqqı ödənilməklə müqavilə bağlanılır.

Gündəlik həyatda insanların fəal həyat tərzi, texnikadan və nəqliyyat vasitələrindən daha çox istifadə olunması, öz növbəsində, gözlənilməz qəfil hadisələri də qaçılmaz edir. Bu hadisələrdən, eləcə də digər gözlənilməz bədbəxt hadisələrdən vaxtında sığortalanmaq insanların çıxılmaz vəziyyətdən xilas olunmalarına kömək edir. Bu kömək isə təkcə insanın özünə deyil, onun bütün ailə üzvlərinə çox lazımdır.

**Hafiz HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş mütəxəssisi***

*Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbdə görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illik yubileyi münasibətilə tədbir keçirilib.*

## M.T.Sidqinin yubileyi qeyd olunur

Tədbiri giriş sözü ilə məktəbin direktoru Əkbər İbrahimov açaraq böyük ədibin həyat və fəaliyyətindən danışıb. O qeyd edib ki, maarifçi şair M.T.Sidqi tanınmış alim-pedaqoq, əxlaq nəzəriyyəçisi və görkəmli məktəbşünasdır. Bununla belə, onun yaradıcılığında ədəbi-fəlsəfi məsələlər də öz əksini tapıb.

Bildirilib ki, Məhəmməd Tağı Sidqinin yaradıcılığında maarifçi şeirlərin xüsusi yeri vardır. Pedaqoji görüşlərində məktəbi "cəhalət dərdinin dərmanı", müəllimi isə "cəhalət bağının bağbanı" sayan görkəmli maarif xadiminin poetik öyüdnamələrində də elm ilə dünyanın abad olunmasının elm öyrənməklə mümkünlüyündən, dünya dillərini öyrənməyin faydalarından, kamil insan olmaq qayəsindən geniş bəhs olunur.

Vurğulanıb ki, elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifi olan görkəmli maarif xadimi ədəbi yaradıcılıqla da məşğul olub. Onun qələminin məhsulu olan uşaq nəsrinin ilk mükəmməl nümunələri, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynayıb.

Sonra məktəbin müəllimlərindən Xatirə Baxşəliyevanın, Gövhər Bağırovanın, kitabxanaçı Elmira Pənahovanın çıxışları olub.

Sonda məktəbin şagirdlərinin ifasında Məhəmməd Tağı Sidqinin şeirlərindən seçmələr bədii qiraət edilib.

* * *

Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbdə də M.T.Sidqinin 160 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib. Tədbiri məktəbin direktoru Elmira Həsənova açaraq bildirib ki, maarifçilik ideyalarının həm elmi, həm də təcrübi sahədə inkişafına təməl olan Sidqi yaradıcılığı xalqın dünyagörüşünün formalaşmasına təsir edən əsərlər məcmusudur. Naxçıvan torpağının yetirməsi olan Məhəmməd Tağı Sidqi xalqının, millətinin maariflənməsi uğrunda mübarizə aparan ilk maarif fədailərindəndir.

Sonra məktəbin təşkilatçısı Səmayə Şəfiyevanın, Azərbaycan dili və ədəbiyyat müəllimləri Gülşad Yusifovanın və Könül Həmzəyevanın ədibin həyat və yaradıcılığından bəhs edən çıxışları olub.

Çıxışlarda vurğulanıb ki, Məhəmməd Tağı Sidqi maarifçilik uğrunda mübarizə aparıb. Pedaqoq-şair bu mübarizədə sözün gücündən ustalıqla istifadə edib, kitablar yazıb, dərsliklər hazırlayıb. Elmə rəğbət, məktəbə çağırış motivli əsərlərində yazıçı təcrübəli pedaqoq kimliyi ilə diqqət çəkir. Bu mübarizədə əsas məqsəd isə gələcəyimiz olan uşaqlarımızı maarifləndirməkdir.

Qeyd olunub ki, M.T.Sidqi qızların maariflənməsi uğrunda da çalışırdı. Onun "Töhfeyi-bənat, yainki qızlara hədiyyə" əsəri bu baxımdan qiymətlidir. Bu əsərdə əksini tapan qiymətli fikirlər müasir dövrdə də öz əhəmiyyətini qorumaqdadır.

Məhəmməd Tağı Sidqi yaradıcılığı öz aktuallığı ilə indi də təravətini qoruyub saxlamaqdadır. Bu baxımdan onun əsərlərini mühafizə edib gələcək nəsillərə çatdırmaq bu günün ziyalılarının üzərinə düşən vəzifələrdəndir.

Sonda məktəbdə yaradılmış "Məhəmməd Tağı Sidqi – 160" adlı sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

## Payız fəslində ehtimal olunan xəstəliklər və onlarla mübarizə yolları

***Hər** bir fəslin özünəməxsus gözəllikləri var. Bununla belə, fəsil dəyişkənliyi insan orqanizmində müəyyən dəyişikliklərin baş verməsinə səbəb olur. Buna görə də gün ərzində, həmçinin fəsil dəyişkənliyində bəzi qaydalara əməl edərək sağlamlığımıza ciddi diqqət yetirməliyik. Nəzərə alsaq ki, artıq payız fəslidir və qarşıda bizi bundan da soyuq havalar gözləyir, o zaman mütləq şəkildə özümüzü havanın soyuğundan qorumalı və sağlamlığımıza biganə yanaşmamalıyıq. Havalar soyuduqca bədənin müqaviməti azalır. Bədən zəiflədiyi üçün xəstəliyə yoluxma halları daha çox müşahidə olunur. Mütəmadi olaraq işləyən insanlarda və ya məktəblilərdə bu cür hallara tez-tez rast gəlmək mümkündür. Havaların qəfil soyuması xroniki xəstəlikləri olan insanlara daha tez təsir edir və bəzi mövsümi xəstəliklər baş qaldırır. Bu cür xəstəliklərdən qorunmağın yollarını öyrənmək üçün həkim İsmət İmanova ilə həmsöhbət olduq:*

***– İsmət həkim, fəsil dəyişkənliyi ilə əlaqədar payızda hansı xəstəliklərin aktivliyi çoxdur?***

– Payızda havanın soyuması, hava çirkliliyinin artması yoluxucu xəstəliklərin sayını artırır. Payız aylarında xarakterik xəstəliklər soyuqdəymə, badamcıqların iltihabı, faringit-boğaz iltihabı, sinuzit, otitis media, bronxit və pnevmoniyadır. Fəsil dəyişkənliyini insanlar çəkisindən, orqanizmin immunitet səviyyəsindən asılı olaraq, müxtəlif cür keçirirlər. Bu, bəzi insanlarda özünü halsızlıq, yorğunluqla büruzə versə də, bəzilərində yuxusuzluq, iştahasızlıq və depressiya ilə müşahidə olunur. Payız soyuqdəymə ilə başlayan və diqqət edilmədikdə bəzən ağır fəsadlar yarada bilən xəstəliklər fəslidir. Soyuqdəymə və qrip viruslarla yaranan xəstəliklərdir. Əlamətləri halsızlıq, qızdırma, boğazda yanma, burun tutulması, axması və əzələ ağrılarıdır. Yaşlı nəslin nümayəndələrinə, eləcə də ürək-damar, təzyiq oynaması xəstəliklərindən əziyyət çəkənlərə qrip peyvəndi olmalarını məsləhət görürlər. Çünki temperatur dəyişkənliyinə məruz qalan insan orqanizmi zəifləyir, gücdən düşür və temperatur dəyişkənliyinə hazır olmadığı üçün müxtəlif xəstəliklərə yoluxma ehtimalı artır. Qrip virus mənşəli xəstəlikdir. Müxtəlif bakteriyalar bu xəstəliyə qoşulduqdan sonra fəsad çoxalır. İndi qripin və digər xəstəliklərin, necə deyərlər, "tüğyan etdiyi" vaxtdır. Qrip yaşından asılı olmayaraq, hər bir insana tez yoluxan bir xəstəlikdir. Qrip həm də orqanizmdə cürbəcür xəstəliklərin təməlini qoyur. Çoxları qripə ciddi yanaşmırlar. Onun gəldi-keçər bir xəstəlik olduğunu düşünüb, o qədər də ciddi qəbul etmirlər. Ancaq unutmaq olmaz ki, qrip faringit, sinuzit, haymorit kimi xəstəliklərin başlanğıcıdır; həm də böyrək patologiyası yaradır. Xəstəlik zamanı ağciyər həssaslaşır. Bu zaman xəstənin orqanizmi zəifdirsə, rütubətli şəraitdə çalışırsa, normal qidalanmırsa, o, vərəmə də yoluxa bilər. Qripin ən çox yoluxma səbəbi ortaq istifadə edilən əşyalardır. Buna görə də qripə yoluxmuş adamdan uzaq gəzmək, onun əli dəyən əşyalardan istifadə etməmək məsləhət görülür.

***– Bu cür xəstəliklər daha çox hansı yaşda olan insanlarda özünü büruzə verir və qarşısının alınması üçün hansı tədbirlər görülməlidir?***

– Payız fəsli xəstəliklərinə ən çox uşaqlar, diabet, astma kimi xroniki xəstəliyi olanlar yoluxurlar. Yetkinlərdə isə həddindən artıq yorğunluq, stress, qidalanma nizamsızlığı və həddən artıq soyuğa məruzqalma kimi hallarda xəstəlik görünə bilər. Xarici faktorlarla əlaqədə olan insanlar daha çox payız xəstəliklərinə yoluxurlar. Məktəblər, kafelər, fabriklər, iş yeri və ofislər xəstəliklərin asanca yayıldığı mühitlərdir. Qrip və bu kimi yoluxucu xəstəliklərdən qorunmaq üçün xəstələrlə yaxın təmasda olmaq olmaz. Qələm, kitab və stəkan kimi xüsusi əşyaları xəstələrlə ortaq istifadə etmək düzgün deyil. Əl təmizliyinə çox diqqət yetirilməlidir. Xüsusilə bağlı məkanlardan, havalandırılması yaxşı olmayan yerlərdən mümkün qədər uzaq durmaq lazımdır. Mövsümə uyğun geyinilməli, paltarlar nə çox nazik, nə də çox qalın olmalıdır.

Qrip xəstəliyini influenza virusu yaradır. Xəstəlik xəstə və ya daşıyıcı kəslərin asqırması və ya öskürməsi, onun tutduğu qapı qolu, telefon və ya dəsmal kimi ortaq istifadə əşyalarından asanlıqla keçə bilər. Bədən hava dəyişmələrinə 2-4 həftəyə öyrənir. Bu müddəti sağlam qalmağı bacaran insanlar sonra daha az xəstələnirlər. Ancaq payız gələn kimi xəstəliyə yoluxanlar bütün qış boyu xəstələnirlər. Bir də görürsən ki, kimsə allergiya mənşəli xəstəliklərdən şikayət edir. Bir başqası mədə-bağırsaq sistemlərində yaranan problemlərdən danışır. Digərləri isə qan təzyiqinin yüksəlməsindən və ürək-damar nahiyəsində ağrıların artmasından narazılığını bildirir. Sadəcə olaraq, gərək hər bir insan müəyyən qaydalara və normalara əməl eləsin. Xüsusən də ictimai nəqliyyatda, avtobuslarda olarkən qripə yoluxmuş insanlar qoruyuculardan istifadə etsələr, daha yaxşı olar. Üstəlik, insanlar sanitar və gigiyenik qaydalara riayət etsələr, bu cür xəstəliklərdən özlərini qismən də olsa, qoruya bilərlər.

***– İsmət həkim, payız mövsümündə hansı qidalara üstünlük verilməsi insan sağlamlığı üçün əhəmiyyətlidir?***

– Havaların soyuması nəticəsində yaranan xəstəliklərin qarşısının alınması üçün qida rasionuna diqqət yetirmək çox vacib və zəruri məsələdir. Uşaqlar, süd verən analar, hamilələr, qocalar və xroniki xəstəliyi olan insanlar payızda sağlamlıqlarının qorunması üçün düzgün qidalanmalıdırlar. Çünki hava dəyişkənliyi orqanizmdə vitamin və minerallara ehtiyac yaradır. Biz bu ehtiyacları qida vasitəsilə ödəməyə çalışmalıyıq. Kök, bibər, göyərtilər, ağartı məhsulları mütləq gündəlik qida rasionuna salınmalıdır. Bundan əlavə, təbii meyvə şirələrinə üstünlük vermək lazımdır. Təbii bitki çayları, salatlar da orqanizm vitamin ehtiyacını ödəyir. Payız fəslində orqanizmin vitamin və mineral ehtiyacını ödəmək insanları qışda ağır xəstəliklərdən qoruyur. Ət və süd məhsulları, kişmiş, cəviz immuniteti artırmağa yardım edən qidalardandır. Üzüm, nar, qırmızı giləmeyvə, moruq xəstəliyə yoluxma riskini azaldır. İmmuniteti zəif olan uşaq və yaşlı insanların vitaminlərə, xüsusən də C vitamininə daha çox ehtiyacı vardır. Havalar soyuqlaşdığı üçün bədənimizin enerjiyə olan tələbatı artır. Bu səbəbdən çox yemək istəyi meydana gəlir. Payızda artıq çəki yığmamaq üçün gün ərzində 5 dəfə, amma az-az yemək lazımdır. Payız fəslinə keçid ürək-damar xəstələrində tarazlığı poza, onlarda ağrıları intensivləşdirə bilər. Düzdür, soyuq ürəyə təsir etmir, amma havaların dəyişməsi insana psixoloji təsir göstərdiyindən ürək xəstəlikləri də məhz bu dövrdə üzə çıxır.

Fəsil dəyişkənliyi daha çox uşaqların sağlamlığına böyük təsir göstərir. Odur ki, uşaqlara hər zaman qayğı göstərmək lazımdır. Uşaqların immun sistemi çox zəif olduğu üçün yazda uşağın orqanizmini yay, payızda isə qış üçün hazırlamaq lazımdır. Gigiyenik qaydalara əməl etmək və onların qida rasionunu vitamin və mineralların bol olduğu qidalarla zənginləşdirmək məsləhət görülür. Meyvə-tərəvəz, ağartı məhsulları, meyvə şirələri uşaqların vitamin ehtiyacının ödənilməsi üçün çox vacibdir. Çünki bu cür qidalanmaq orqanizmi lazım olan vitaminlərlə təmin etmiş olur.

***Müsahibə üçün sağ olun.***

**✍ Sona MİRZƏYEVA**

***İtmişdir***

Muradov Bəxtiyar Rövşən oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 916